# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 247 **QƏRAR** Bakı şəhəri, 28 iyul 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının statistik vahidlərin Dövlət registrinin yaradılması haqqında" 1992-ci il 9 sentyabr tarixli 496 nömrəli, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında" 1997-ci il 2 may tarixli 38 nömrəli, "Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2011-ci il 22 sentyabr tarixli 149 nömrəli və "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" 2014-cü il 3 aprel tarixli 94 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Sərhəd mühafizə orqanları haqqında", "Daxili qoşunların statusu haqqında", "Rəsmi statistika haqqında", "Həmkarlar ittifaqları haqqında", "Haqsız rəqabət haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" və "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 817-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 sentyabr tarixli 496 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 22 fevral tarixli 126 nömrəli və 23 mart tarixli 159 nömrəli, 1996-cı il 2 avqust tarixli 98 nömrəli qərarları; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 659; 2006, № 4, maddə 371; 2008, № 9, maddə 853; 2010, № 1, maddə 69; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 9, maddə 1585) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası statistik vahidlərin Dövlət Registri haqqında Əsasnamə"nin 8-ci hissəsində "kütləvi informasiya vasitələri," sözləri "media subyektləri," sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 320; 2003, № 9, maddə 524; 2004, № 5, maddə 383; 2006, № 3, maddə 297, № 5, maddə 463; 2008, № 7, maddə 683; 2011, № 4, maddə 363; 2017, № 10, maddə 1928; 2018, № 8, maddə 1809; 2020, № 10, maddə 1310; 2021, № 8, maddə 968, № 9, maddə 1049; 2023, № 3, maddə 425) 9 nömrəli əlavə - "Televiziya və radio verilişlərinin, televiziya filmlərinin və digər televiziya və radio əsərlərinin yaradıcılarına ödənilən müəllif qonorarlarının və sair ödənilən haqların miqdarı və verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.4.11-ci yarımbənddə "Teleradio verilişlərinin" sözləri "Televiziya və radio proqramlarının" sözləri ilə əvəz edilsin;

2.2. "6."EKRAN-EFİR" həftəliyinin səhifələrində dərc olunan materiallar üçün müəllif qonorarının minimum miqdarı" hissəsinin cədvəlinin "İşlərin növü" sütununun 2-ci sətrində "Teleradioverilişlərinə" sözləri "Televiziya və radio proqramlarına" sözləri ilə əvəz edilsin;

2.3. 9-cu hissənin adında "Teleradio verilişlərinin" sözləri "Televiziya və radio proqramlarının" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 22 sentyabr tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 859; 2017, № 12 (II kitab), maddə 2506; 2018, № 8, maddə 1809, № 12, maddə 2734) ilə təsdiq edilmiş "Müəlliflərin və əlaqəli hüquqların sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.14-cü bənddə "digər kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin;

3.2. 5.3-cü bənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 440, № 11, maddə 1513; 2015, № 5, maddə 665; 2016, № 3, maddə 615, № 5, maddə 955, № 9, maddə 1563, № 10, maddə 1733; 2017, № 1, maddə 123, № 8, maddələr 1616, 1623, № 9, maddə 1758; 2018, № 2, maddə 343, № 3, maddə 622, № 4, maddə 809, № 5, maddə 1126, № 8, maddə 1817, № 10, maddə 2162, № 11, maddə 2439; 2019, № 3, maddə 522, № 12, maddə 2101; 2020, № 2, maddə 206, № 10, maddə 1270, № 11, maddə 1411; 2021, № 2, maddə 193, № 10, maddə 1197; 2022, № 4, maddə 374, № 11, maddə 1346) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın 20-1.6-cı bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan.- 2023.- 30 iyul.- S. 3.